37 (1343) 19-25 sentyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏMİZƏ GƏLƏCƏK TURİSTLƏRİN İSTİRAHƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİNƏ BÖYÜK TÖHFƏ



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.***

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına bağda həyata keçirilən abadlıq-yenidənqurma işləri barədə məlumat verib.

Bildirilib ki, "Xaqani" bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb.

Qeyd edək ki, bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb.

Bu bağın Formula 1 Azərbaycan Qran-Prisinin keçirildiyi bir zamanda və Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində istifadəyə verilməsi ölkəmizə gələcək turistlərin istirahətinin səmərəli təşkilinə də böyük töhfə olacaq.

Xatırladaq ki, paytaxtımızda ən müasir parklar və yeni yaşıllıq zolaqları salınır, Bakının qədim tarixi memarlıq nümunələri bərpa edilir və müasir binalar tikilib istifadəyə verilir. Bu işlərin hamısı şəhərə daha çox gözəllik və kolorit verir, məhz bunun sayəsində Azərbaycan paytaxtı insanların həyatı və asudə vaxt keçirməsi üçün rahat məkana çevrilir. Yeni parkların salınması və mövcud olanların yenidən qurulması, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirlər də ətraf mühitin sağlamlaşdırılması işinə mühüm töhfə verir.

## "BU YARIŞLAR AZƏRBAYCANIN DÜNYADA DAHA ÇOX TANIDILMASI BAXIMINDAN İLDƏN-İLƏ BÖYÜK ROL OYNAYIR"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikalini, Formula 1-in məsləhətçisi Flavio Briatoreni və britaniyalı supermodel Naomi Kempbelli qəbul edərkən deyib.



Görüşdə COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd edilib, ekologiya sahəsində davamlılıq məsələsində də Formula 1-in daha fəal olmasının önəmi vurğulanıb. Formula 1-in növbəti dəfə ölkəmizdə keçirilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu yarışların Azərbaycanın dünyada daha çox tanıdılması baxımından ildən-ilə böyük rol oynadığını qeyd edib.

Dövlətimizin başçısı Formula 1-in Azərbaycanda keçirilməsinə göstərdiyi dəstəyə görə Stefano Domenikaliyə və Flavio Briatoreyə minnətdarlığını bildirib.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparılıb. Formula 1-in Azərbaycanda avtomobil idmanının inkişafı sahəsinə verdiyi töhfələr də vurğulanıb. Həmçinin ölkəmizdə kartinqin inkişafı məsələlərinə toxunulub.

Dövlətimizin başçısı qonaqları COP29 tədbirində iştiraka dəvət edib.

Bakının inkişafının onda dərin təəssürat hissi yaratdığını deyən Naomi Kempbell paytaxtda şahidi olduğu müasir infrastrukturu, o cümlədən məşhur memar Zaha Hadidin layihəsi olan Heydər Əliyev Mərkəzini məmnunluqla qeyd edib.

## AZƏRBAYCAN AVTOMOBİL FEDERASİYASI VƏ KLUBLAR İLƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib. Məhəmməd Ben Sulayem ötən ilin dekabrında Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının və Federasiyanın mükafatlandırma mərasiminin Bakıda keçirilməsinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Qonaq Azərbaycan Avtomobil Federasiyası və klublar ilə sıx əlaqələrin mövcud olduğunu deyərək, əməkdaşlığın genişləndiyini vurğulayıb.

Məhəmməd Ben Sulayem COP çərçivəsində Beynəlxalq Avtomobil Federasiyasının nəqliyyat sahəsində fəaliyyətə dəstək verəcəyini və bununla bağlı Federasiyanın mütəxəssislərinin ölkəmizlə əməkdaşlıq edəcəklərini bildirib.

Dövlətimizin başçısı Beynəlxalq Avtomobil Federasiyasının prezidentini COP29-a dəvət edib.



## AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ STRATEJİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB

Sentyabrın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, telefon danışığı zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli strateji əməkdaşlıq məsələləri, habelə regional əlaqələr müzakirə olunub. Tərəflər, həmçinin beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq perspektivlərinə dair müzakirə aparıblar.

Müzakirə çərçivəsində Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) 2024-2026-cı illər üzrə sədrliyinə dair prioritet istiqamətlərə toxunulub.

Hər iki tərəf Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq, dostluq və qarşılıqlı əməkdaşlığa əsaslanmasından məmnunluqlarını ifadə ediblər. Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




## SEÇKİLƏRLƏ ƏLAQƏDAR MSK-NIN RƏSMİ İNTERNET SƏHİFƏLƏRİNƏ 3 MİLYONA YAXIN BAXIŞ OLUB



"Milli Məclisə seçkilər elan edildikdən sonra seçki günü də daxil olmaqla Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifələrinə 3 milyona yaxın baxış qeydə alınıb. Yalnız səsvermə günü isə bu rəqəm 569 min 675 olub".

Bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sentyabrın 16-da keçirilən iclasında MSK sədri Məzahir Pənahov söyləyib.

O bildirib ki, səsvermə günü dünyanın müxtəlif ölkələrindən veb-kameralara 570 min 49 baxış olub.

## BAKIDA AZƏRBAYCAN-İRAQ BİZNES FORUMU KEÇİRİLİB

Bakıda Azərbaycan İqtisadiyyat Nazirliyi, İraqın Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və İraqın Ticarət Palataları Federasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan-İraq biznes forumu keçirilib.

Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, qida, logistika, tikinti, konsaltinq, gəmiçilik və s. sahələrdə fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak edib.

İraqın ticarət naziri Ater Davud Əl-Ğureyri iki ölkə arasında tarixi bağların olduğunu və ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb, iqtisadi tərəfdaşlığın inkişafı istiqamətləri barədə fikirlərini bildirib. Nazir ölkəsində geniş iqtisadi islahatların aparıldığını və əlverişli investisiya mühiti yaradıldığını diqqətə çatdırıb, iş adamlarını fəal əməkdaşlığa dəvət edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan tədbirləri, bu sahədə agentliyin fəaliyyətini, eləcə də KOB sahəsində İraqın müvafiq qurumları və sahibkarlıq subyektləri ilə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Azərbaycan-İraq biznes forumu çərçivəsində KOBİA ilə İraq Ticarət Palataları Federasiyası arasında Azərbaycan-İraq Biznes Şurasının yaradılması haqqında razılaşma sənədi imzalanıb.

Biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

# "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib

Bakıda Auditorlar Palatasının təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.





Konfransın keçirilməsində əsas məqsəd yaşıl iqtisadiyyat şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə yanaşı, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq və nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə fikir mübadiləsi aparmaq və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

İşə başlayan beynəlxalq elmi-praktik konfransda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov tədbirin əhəmiyyətindən bəhs edib və konfransın işinə uğurlar arzulayıb.

Həmçinin tədbirdə Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Asma Resmouki, Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin və digər xarici qonaqlar təbrik nitqləri ilə çıxış ediblər.

Konfransda iqlim fəaliyyətinin qiymətləndirilməsinə ali audit orqanlarının cəlb edilməsi, dayanıqlı inkişaf sahəsində məlumatların açıqlanması üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiq edilməsi, dayanıqlı inkişaf barədə hesabatlılıq, Avropa İttifaqında davamlılıq hesabatı və audit üçün hüquqi baza, yaşıl iqtisadiyyat şəraitində mühasiblər və auditorlar üçün əsas çağırışlara dair məruzələr dinlənilib, bu sahələrdə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılması şərh edilib, yaşıl iqtisadiyyat, sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsi sahəsində 19 məruzə dinlənilib və faydalı fikir mübadiləsi aparılıb.

Beynəlxalq elmi-praktik konfrans çərçivəsində İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) və Auditorlar Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

Konfransın yekununda Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul edilib.

Konfransda Beynəlxalq Mühasiblər Federasiyası (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA), İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) kimi nüfuzlu beynəlxalq qurumları və 12 ölkəni (Azərbaycan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Özbəkistan, Pakistan, Rusiya, Türkiyə) təmsil edən 30 qurumdan 150-yə yaxın nümayəndə iştirak edib.

# Sentyabrın 20-si Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi təsis olundu



Azərbaycanda sentyabrın 20-si Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi təsis olunub.

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Mədəniyyət Nazirliyinə Azərbaycan Prezidentinin aidiyyəti xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlərin görülməsi tapşırılıb.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanda hər il 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi təntənəli şəkildə qeyd olunur.

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7,25 faiz, faiz dəhlizinin aşağı həddi 6,25 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz saxlanılıb.

AMB-dən bildirilib ki, uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfdə (4±2 faiz) olması, inflyasiyanın daxili və xarici amillərinin dinamikası nəzərə alınmaqla qəbul olunub.




# "Azərbaycan ilə İraq arasında ticarət dövriyyəsi 49 faiz artıb"




*"Cari ilin yanvar-iyul aylarında Azərbaycan ilə İraq arasında ticarət dövriyyəsində 49 faizlik artım qeydə alınıb".*

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-İraq biznes forumunda deyib.

O bildirib ki, ölkələrimiz arasında ticarət dövriyyəsi müsbət dinamika ilə inkişaf edir.

*"Lakin bu rəqəm gözləniləndən azdır. Ölkələrimiz arasında ticarət potensialı genişdir. Hazırda 170-ə yaxın İraq şirkəti Azərbaycanda müxtəlif sektorlar üzrə fəaliyyət göstərir. Azərbaycan şirkətlərinin də İraqda fəaliyyəti üçün geniş potensial mövcuddur. İraqda böyük infrastruktur layihələrində Azərbaycan şirkətləri podratçı qismində iştirak edib, hazırda ölkədə inşaat, enerji, su təchizatı, yol və körpülərin tikintisinə tələbin mövcudluğu yerli şirkətlərimiz üçün yeni imkanlar açır"*, - deyə nazir əlavə edib.

# "Gələn ilin əvvəlinə İraqa ixrac missiyası planlaşdırılır"

Bunu İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev Azərbaycan-İraq biznes forumunda çıxışı zamanı deyib. Y.Abdullayev bildirib ki, bu ilin yanvarında AZPROMO-nun nümayəndələrinin Ərbil şəhərinə səfəri çərçivəsində İraqda Ticarət Evinin açılması təklifi müzakirə olunub: *"İlkin büdcə və gözləntiləri əks etdirəcək smetanın hazırlanması ilə bağlı qarşı tərəfə sorğu ünvanlanıb".*

# Mərkəzi Bankda investisiya şirkətlərinin nümayəndələri üçün təlim keçirilib

Azərbaycan Mərkəzi Bankı (AMB) ilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən investisiya şirkətlərinin nümayəndələri üçün təlim keçirilib.

AMB-dan bildirilib ki, təlimdə "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"dan ətraflı bəhs olunub. Sözügedən qaydaların praktiki məqamları ilə bağlı xüsusi təqdimat nümayiş etdirilib və bu istiqamət üzrə suallar cavablandırılıb.

# Azərbaycanın makroiqtisadi proqnozları yenilənib

Azərbaycanın ortamüddətli dövr üçün makroiqtisadi proqnozları yenilənib.




Maliyyə Nazirliyindən bildirilir ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin avqust ayında təqdim olunan proqnozlara əsasən baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2025-ci il üçün 70 ABŞ dolları və 2026-2028-ci illər üçün 65 ABŞ dolları fərz edilmişdir.

Təbii qazın min kubmetrinin orta illik ixrac qiyməti baza ssenaridə 2025-ci il üzrə 242 ABŞ dolları, 2026-2028-ci illər üzrə isə 236 ABŞ dolları olaraq götürülmüşdür.

Proqnozlara əsasən, 2025-ci ilin sonuna ümumi daxili məhsulun (ÜDM) həcminin 129,2 milyard manat, o cümlədən qeyri-neft/qaz ÜDM-inin həcmi 92,2 milyard manat təşkil edəcəyi, 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata qədər, o cümlədən qeyri-neft/qaz ÜDM-inin həcminin 117,2 milyard manata qədər artacağı gözlənilir. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,35 faiz, qeyri-neft/qaz ÜDM-inin 5,0 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı proqnozlaşdırılır.

2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft/qaz sektorunun payının artaraq 77,7 faizə çatacağı, neft-qaz sektorunun payının isə 22,3 faizə bərabər olacağı proqnozlaşdırılır.

İqtisadiyyat Nazirliyi tərəfindən beynəlxalq təşkilatların əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi, eləcə də antiinflyasiya tədbirləri əsas götürülərək baza ssenaridə 2025-ci ildə isə 4,6 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın tədricən azalaraq 2028-ci ildə 3,8 faiz olacağı gözlənilir.

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2025-2028-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülmüşdür.

Proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir.

Ortamüddətli dövrdə əsas kapitala olan investisiyalarda orta illik 3 faiz artım olacağı proqnozlaşdırılır. 2025-ci ildən 2027-ci ilin sonuna doğru neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında, həmçinin daxili investisiyalarda artım proqnozlaşdırılır.

# Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura 4 milyard manat xərclənəcək

2025-ci ildə Azərbaycanda dövlət büdcəsi xərclərinin 4 milyard manatı və yaxud 10,1%-i işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin payına düşəcək.

Maliyyə nazirliyindən verilən məlumata görə, bu, 2024-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 17,6% azdır. *"Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədənitarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2025-ci ilin dövlət büdcəsindən 4 milyard manat vəsait nəzərdə tutulub"*, - Nazirlikdən bildirilib.

# НА БАЗЕ UNEC ПРОШЛИ ВАЖНЫЕ МЕЖДУНАРОДНЫЕ ФОРУМЫ

***30 августа – 01 сентября 2024 года в Баку прошли важные международные форумы, направленные на развитие международного научного сотрудничества в различных областях. Мы попросили рассказать об этих форумах Эльчина Халилова, Исполняющего Обязанности Президента Азиатской Академии Наук, Президента Азербайджанской Секции Международной Академии Наук, Академика, Профессора, доктора геолого-минералогических наук, обладающего государственным статусом КНР «Национальный талант высшей категории КНР», руководителя Международной Программы ZEOMAG и ключевой лаборатории Университета Вэньжоу (КНР).***




*Доклад проф. Э.Н.Халилова на международном семинаре в Институте Систем Управления*



*Эльчин муаллим, какие форумы прошли в период 30 августа – 01 сентября в Баку и чему они были посвящены.*

30 августа в Институте Систем Управления (ИСУ) Министерства Науки и Образования Азербайджана прошел Международный Научный Семинар, организованный ИСУ, Университетом Вэньджоу и Азербайджанской Секцией Международной Академии Наук. На семинаре был представлен к рассмотрению пилотный проект «Мониторинг экологических загрязнений акваторий с помощью роботизированного беспилотного надводно-воздушного комплекса с элементами искусственного интеллекта». Докладчиками являлись я и Жан Ги (Франция) – «Национальный талант высшей категории КНР», Профессор, доктор технических наук, руководитель лаборатории робототехники и искусственного интеллекта Парка Высоких Технологий в г. Шаосинь, КНР. В работе семинара также приняли участие делегации из Института Экологии Национального Аэрокосмического Агентства Азербайджана и Азербайджанского Государственного Экономического Университета.

31 августа в здании Азербайджанского Государственного Экономического Университета (UNEC) состоялась Генеральная Ассамблея Азербайджанской Секции Международной Академии Наук, во время которой я, как Президент АС МАН, отчитался о проделанной работе за предыдущие 5 лет.

Напомню, что Азербайджанская Секция Международной Академии Наук-Международного Совета по Научному Развитию была создана в 2001 году при непосредственной поддержке Общенационального Лидера Азербайджанского Народа, Президента Азербайджана Гейдара Алиева и являлась второй национальной секцией в СНГ после Российской Секции. Учредителями Азербайджанской Секции явились: Национальная Академия Наук Азербайджана, Академия Авиации Азербайджана и все Государственные Университеты Азербайджана, а также Университет «Хазар». Президент Азербайджана Гейдар Алиев был избран Почетным Академиком Международной Академии Наук (Австрия) и награжден высшей наградой – Золотым Знаком «Здоровье и Экология». Информация об этом имеется также в Государственной Книге «Təltiflər» (Награды Президента Азербайджана Гейдара Алиева) опубликованной Аппаратом Президента Азербайджана.

Основателями самой Международной Академии Наук (Мюнхен) являлись в 1984 году - дважды Лауреат Нобелевской Премии Лайнус Полинг и Лауреат Нобелевской Премии Илья Пригожин - бельгийский физик и физикохимик российского происхождения, при этом, в составе Академии более 120 Нобелевских Лауреатов. Создание Азербайджанской Секции МАН (АС МАН) было поддержано Президентом Российской Секции Международной Академии Наук, Президентом РАМН, Академиком Покровским Валентином Ивановичем. Создание АС МАН лично поддержал Президент МАН, Проф. Вальтер Кофлер (Австрия, Иннсбрук), а также Президент Восточно-Европейской Секии МАН, Проф. Карл Гехт (Германия, Берлин). В первые годы создания Советской Секции МАН ее возглавляли – Лауреаты Нобелевской Премии Александр Михайлович Прохоров и Николай Геннадьевич Басов. Первым почетным Президентом АС МАН был избран выдающийся ученый с мировым именем, Академик НАНА Джалал Алиев. Впоследствии, Почетными Президентами были избраны – выдающийся азербайджанский ученый и общественно-политический деятель, Профессор Муртуз Алескеров и выдающийся ученый-экономист и общественно-политический деятель, Член Милли Меджлиса, Академик НАНА Зияд Самедзаде, который в настоящее время также избран Почетным Президентом АС МАН на очередной срок.



*Вручение диплома Академика АС МАН Профессору Жан Ги (Франция)*

В работе Генеральной Ассамблеи также приняли участие более 20-ти иностранных ученых из Китая, России, Казахстана, Франции, Грузии и других стран. Во время Генеральной Ассамблеи 31 августа был избран новый состав Президиума АС МАН и руководство АС МАН. Я был избран в очередной раз Президентом АС МАН. Первым Вице-Президентом АС МАН избран Профессор, доктор экономических наук, Академик МАН и РАЕН, руководитель департамента промышленности и энергетики Кабинета Министров Азербайджана – ЭльшанГаджизаде. Вице-Президентами АС МАН избраны: Адалят Мурадов, Профессор, доктор экономических наук, Академик МАН и РАЕН, Ректор Азербайджанского Государственного Экономического Университета (UNEC); Али Аббасов, Академик НАНА, Профессор, доктор физико-математических наук, Генеральный Директор Института Систем Управления Министерства Науки и Образования Азербайджана; Махбуба Велиева, Профессор, доктор фармацевтических наук, заведующая кафедрой фармацевтических технологий и управления Азербайджанского Медицинского Университета, Академик МАН, РАЕН и ряда других авторитетных академий, заслуженный педагог Азербайджана. Генеральным Секретарем была избрана Мехрибан Магеррамова, доцент, кандидат биологических наук, руководитель по направлению «Пищевые технологии» Азербайджанского Государственного Экономического Университета.

Были избраны новые академики АС МАН. На данной Генеральной Ассамблее были также избраны иностранные члены АС МАН.

Затем была проведена презентация изданного АС МАН очередного 7-го тома мультидисциплинарного многотомного сборника трудов – Докладов Международной Академии Наук «Наука без Границ», издаваемого в Австрии.



*Участники Международного Симпозиума и 1-й Сессии Азиатской Академии Наук*

Эльчин муаллим, расскажите пожалуйста подробнее о международном симпозиуме.

Международный Мультидисциплинарный Симпозиум «COP29: повышение роли ученых в решении глобальных проблем современной цивилизации. Защита окружающей среды и зеленная повестка дня» был приурочен к проведению в Азербайджане 11-22 ноября 2024 года Конференции ООН по Климату «COP29». Симпозиум проводился на базе Азербайджанского Государственного Экономического Университета (UNEC)и его соучредителями также являлись: Университет Вэньджоу (Китай); Азербайджанская Секция Международной Академии Наук и Центр Геополитического Прогнозирования (ЦГП) «Запад-Восток» (Казахстан). Сопредседателями симпозиума являлись: Академик МАН Адалят Мурадов, Ректор UNEC, Профессор, д.э.н.; Академик Мин Джао, Президент Университета Вэньджоу, Профессор, Д-р (КНР) и Академик МАН Карлыгаш Нугманова, Президент ЦГП «Запад-Восток», Проф., д.п.н. Я являлся Со-Председателем Научного Комитета и Председателем Оргкомитета Симпозиума. В составе Научного Комитета участвовали ученые из более 10 стран, включая: Азербайджан, Турцию, Китай, Россию, Индию, Казахстан, Иран, Францию и другие страны.

Учитывая, что симпозиум проходил в гибридном формате, в нем также онлайн приняли участие ученые из России, Китая, Индиии США. В пленарном заседании с докладом выступил онлайн Академик Китайской Академии Наук (КАН), Директор Исследовательского Центра КАН Цзянь Гибинь. 01 сентября симпозиум продолжил свою работу в формате специальной секции, на которой принимали участие ученые из Китая, Азербайджана и России. По результатам симпозиума были намечены программы сотрудничества между учеными Китая и Азербайджана, Китая и России.

Во второй половине дня 01 сентября в здании Азербайджанской Секции Международной Академии Наук состоялась Первая Сессия Азиатской Академии Наук.

Эльчин муаллим, расскажите пожалуйста подробнее об Азиатской Академии Наук, ее целях и задачах.

Создание Азиатской Академии Наук было инициировано в начале 2024 года Всемирной Организацией по Научному Сотрудничеству «Наука без Границ» и группой ученых обладающих государственным статусом КНР «Национальный талант высшей категории», присуждаемым выдающимся ученым, ставшим победителями Национальной Программы Привлечения Талантов КНР, проводимой Коммунистической Партией и Правительством Китая. Иностранные ученые, ставшие победителями данной программы, получают особый государственный статус и их имена заносятся в специальный государственный реестр КНР. В Инициативный Комитет Азиатской Академии Наук на сегодня вошли около 100 ученых из более 20-ти стран Азии, среди которых более 10-ти ректоров крупных университетов, директора более 10-ти НИИ, а также руководители крупных научных и государственных структур, академики национальных академий наук, известные ученые с мировыми именами.

Несмотря на то, что на сегодня создано немало различных академий во всем мире, Азиатская Академия Наук (ААН) принципиально отличается от всех существующих академий, прежде всего своей целью и поставленными задачами. Хочу особо подчеркнуть, что Азия на сегодня является признанным лидером в стремительном и эффективном развитии высоких технологий, включая робототехнику и искусственный интеллект. Азия охватывает 50 стран, в том числе таких научных и индустриальных лидеров, как Китай, Россия, Япония, Южная Корея, Индия, Малайзия и т.д. В Азии проживает более 60% населения нашей планеты. Доля стран Азии в мировой экономике составляет более 35%.



*Заседание первой сессии Азиатской Академии Наук*




Одним из основных показателей научно-технического развития стран является подача заявок на получение патентов на изобретения. Так вот, ежегодное число подаваемых заявок на получение патентов на изобретения во Всемирную Организацию Интеллектуальной Собственности в странах Азии составляет более 70% от общемирового числа подаваемых заявок. Цель ААН - это консолидация ученых Азии в создании Единого Академического и Интеллектуального Пространства Азии (ЕАИПА) и решении актуальных проблем современной цивилизации.

Кроме того, было доведено до участников 1-й Сессии ААН, что название «Азиатская Академия Наук» получило официальную международную регистрацию.

# Elm və təhsilin inteqrasiyası bizdə niyə zəifdir?

*"...Təhsilimizin irəli getməsi üçün elmi tədqiqatlar lazımdır. Bu çərçivədə yeni təhsil siyasəti modellərini yaratmaq mümkündür. Bura təhsilin məzmunu, metodikası və digər məsələlər aiddir. Həmin dəyişiklikləri birbaşa yox, ardıcıl pilot layihələr çərçivəsində tətbiq etmək olar".*

*Təhsil naziri E.Əmrullayev*

Yeni dərs ili artıq başlayıb. Amma təhsilin köhnə problemləri hələ də öz həllini gözləyir. Ümid edək ki, bu dərs ili daha uğurlu olacaq, nəhayət ki, qalaqlanmış problemlər qismən həll ediləcək.

Təhsilimizin irəli getməsi üçün ETN E.Əmrullayevin qeyd etdiyi kimi, elmi tədqiqatlar lazımdır, amma hələ də belə tədqiqatlar yoxdur. Bu səbəbdən yeni təhsil siyasəti, onun müxtəlif modelləri də yoxdur. Lazımi pilot layihələr də heç ortalıqda görünmür. Sadəcə quru sözlər var, əməl yoxdur, yəni sadəcə hay-küy var.

Biliyə əsaslanan iqtisadiyyat dövründə hər bir fəaliyyət sahəsinin, xüsusən də təhsil kimi mürəkkəb, dinamik sistemin elmi təminatının olması zəruridir. ETN-in əsas fəaliyyət sahəsi bildiyimiz kimi təhsildir. Büdcəsinin də 95%-i təhsilə yönəlir. Amma təhsilin elmi təminatı nədənsə hələ də yoxdur. Təhsilin elmi təminatı dedikdə təhsil elmlərinin inkişafı, onun gəldiyi nəticələrin təhsil praktikasında, islahatlar prosesində tətbiqi nəzərdə tutulur.

Ölkəmizdə AMEA-nın tərkibində təhsil elmləri ilə məşğul olan şöbə, institut heç vaxt olmayıb, indi də yoxdur. Ənənə üzrə bu işi sovet vaxtı, indiki adı ARTİ olan institut aparırdı. Bu işdə ona SSRİ PEA yaxından dəstək verirdi.

Müstəqillik illərində təhsil elmlərinin qarşısında duran problemləri təkcə ARTİ-nin potensialı ilə həll etmək mümkün deyildi. Bu institutun bazasında təhsil akademiyası yaradılmalı idi. Amma belə təkliflər verilsə də, nəzərə alınmadı. Problemin digər həll yolu universitetlərin bu prosesə fəal qoşulması ola bilərdi. Amma bu da olmadı. Digər tərəfdən bu problemlərin həlli məqsədi ilə ARTİ-nin potensialını artırmaq əvəzinə, onu zəiflətdilər. Bu proses son 10 ildə baş tutdu, belə ki, ARTİ elmdən və təhsildən uzaq, elmi dərəcəsi olmayan, təcrübəsiz kadrlarla komplektləşdirildi, ştatlar artsa da, araşdırmalar azaldı. Beləliklə, bu institutun gücü xeyli zəiflədi. Artıq ARTİ təhsil islahatlarına elmi dəstək vermək gücündə deyildi.



Elmə əsaslanmayan təhsil islahatları isə heç vaxt uğur gətirə bilməzdi. Təəssüf ki, bizim təhsil islahatları son 20 ildə elmdən faydalana bilmədi.

Təhsil islahatlarının elmi təminatı zəruridir. Belə tədqiqatların sifarişçisi və investoru məhz ETN olmalıdır. Təhsil qrantları tamamilə bu problemlərin həllinə yönəlməli idi. Dövlət proqramlarına ayrılan maliyyə də bu məqsədlərə xidmət etməli idi. Təhsil büdcəsinin 4 qat artdığı bir şəraitdə, əgər təhsilin elmi təminatına pul ayrılmırsa, deməli təhsildə maliyyə siyasəti də düz qurulmayıb. Təəssüf ki, illər itdi, pullar getdi, amma təhsildəki problemlər öz həllini tapmadı.

30 il ərzində təhsilə belə bir sistemli, elmi baxış olmadı, müasir təhsil siyasəti yaradılmadı. Təhsilşünas alimlər proseslərdən uzaq saxlanıldı. Situasiya düzgün qiymətləndirilmədi. Çünki təhsil siyasəti, təhsilin təşkili və idarə edilməsinə məsul kadrlar təhsil elmlərindən çox uzaq idilər.

Bu yaxınlarda təşkil edilən "Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu"nda çıxış edən ETN E.Əmrullayev bildirdi ki: "*Elm haqqında müzakirə aparmaq elmlə məşğul olmaqdan daha asandır. Müzakirələr hərəkətə keçmirsə, biz inkişaf görə bilmərik. Biz elmlə bağlı rəqəmlərə baxdıqda vəziyyətin nə yerdə olduğunu görə bilərik. Rəqəmlər heç də ürəkaçan deyil*".

Nazir haqlıdır. Elmə aid bu fikirləri eyni ilə təhsilə də şamil etmək olar. Yəni, təhsil haqqında müzakirə aparmaq təhsillə məşğul olmaqdan daha asandır. Əgər bu müzakirələr hərəkətə keçmirsə, biz inkişaf görə bilmərik. Biz təhsillə bağlı rəqəmlərə (o cümlədən DİM, PİSA və qlobal reytinqlərə) baxdıqda vəziyyətin nə qədər ağır olduğunu görə bilərik. Rəqəmlər heç də ürəkaçan deyil.

Bəs təhsil sistemində hərəkət niyə yoxdur? Buna nə mane olur? Niyə təhsildə olan azsaylı müzakirələr, təkliflər, tənqidi fikirlər həyata keçmir, bu sözlər hay-küy yaratsa da, real hərəkət, real inkişaf yoxdur?

Məmurlar tez-tez "problemlərdən danışın, məişət mövzusunda söhbətlərə ehtiyac yoxdur" desələr də, qaldırılan problemlərə məhəl verilmir, əksinə problemlərdən danışanları sevmirlər, eşitmirlər, sanki problemləri həll etmək, inkişaf etmək məqsədləri yoxdur. Təhsildə belə söz oyunu 20 ildir davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "*Məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki, bu, yoxdur, heç bir iş getməyəcək. Əksinə, çox mənfi mənzərə ilə üzləşə biləcək. Ona görə bu da bir nəzarət mexanizmi olmalıdır. Mən indi vətəndaşlara ictimai nəzarət haqqında daim müraciət edirəm ki, bu proses yavaş gedir, hələ öyrəşməmişik*".

**dos. İlham Əhmədov**

# "Təmiz Daşkəsən" layihəsi çərçivəsində növbəti ekoloji aksiya təşkil edilib

"AzerGold" QSC-nin təşkilatçılığı, "Daşkəsən Dəmir Filiz" MMC və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) dəstəyi ilə "Təmiz Daşkəsən" layihəsi çərçivəsində növbəti ekoloji aksiya təşkil edilib.

"Yaşıl dünya naminə həmrəy olaq!" şüarı ilə keçirilən aksiyada "Daşkəsən Dəmir Filiz" MMC-nin əməkdaşları və RİİB-nin könüllüləri iştirak ediblər. Aksiya iştirakçıları tərəfindən Xoşbulaq kəndinin ərazisində yerləşən təqribən 2 hektara yaxın meşə ərazisi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib. Yığılmış tullantılar çeşidlənərək, təkrar emala yönəldilib. Aksiya çərçivəsində Daşkəsən rayonu ərazisində yeni tullantı konteynerləri və zibil qutuları yerləşdirilib.




Qeyd edək ki, "Təmiz Daşkəsən" ekoloji layihəsində əsas məqsəd təmizliyə riayət olunmasını təbliğ etmək, ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq, ictimaiyyəti ətraf mühitin mühafizəsi sahəsində mübarizəyə cəlb etməkdir. Bu məqsədlə "Təmiz Daşkəsən" ekoloji layihəsi çərçivəsində rayonun müxtəlif ərazilərində bu tip aksiyaların təşkili davam etdiriləcək.

# "AzerGold" QSC-nin təşkilatçılığı ilə Daşkəsəndə keçirilən növbəti tibbi müayinə aksiyasına yekun vurulub



"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda növbəti səyyar tibbi müayinə aksiyası keçirilib.

"Öncə sağlamlıq!" devizi altında təşkil olunan aksiyada "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən Çovdar kəndi, Şadax yaşayış məntəqəsi, Çaykənd, Quşçu, Bayan və digər kəndlərin sakinləri 3 gün müddətində ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıblar. Aksiyanın ilk günündə şəhid ailələri, o cümlədən qazi və müharibə iştirakçıları müayinəyə cəlb edilib. Peşəkar həkim briqadası tərəfindən 300 nəfərdən çox sakin ümumi cərrah, otorinolarinqoloq, terapevt, endokrinoloq, kardioloq, nevropatoloq, pediatr, USM, EXO, EKQ, qanın və sidiyin ümumi analizi, qanda virus hepatitlərin təyini, ambulator qan təzyiqi monitorizasiyası və şəkərin təyini müayinələrindən keçirilib. Qeyd olunan istiqamətlər üzrə sakinlərə ümumilikdə 1226 xidmət göstərilib.

Qeyd edək ki, 2021-ci ildən etibarən mütəmadi olaraq keçirilən səyyar tibbi müayinə aksiyası ucqar kənd sakinlərinin keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığının artırılması, xəstəliklərin erkən diaqnostikası və profilaktik müayinə mədəniyyətinin təbliği məqsədi daşıyır. 4 ildir ki, həyata keçirilən aksiyalar zamanı ümumilikdə 2000 nəfərdən çox Daşkəsən sakini ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanıb. Müayinələr əsnasında müxtəlif xəstəlikləri aşkarlanan vətəndaşlara müvafiq müalicə kursları təyin edilib.

Xatırladaq ki, Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin yaxınlığında yerləşən kəndlərin sakinləri "AzerGold" QSC tərəfindən mütəmadi olaraq ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq, məşğulluq, sahibkarlığın təşviqi və s. istiqamətlər üzrə icra edilən layihələrdən faydalanırlar. Məqsəd bölgədə yaşayanların, xüsusilə də sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin qayğı ilə əhatələnməsi, bu istiqamətdə icra edilən dövlət siyasətinə əlavə töhfə verməkdir.



# «Green Food Group» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | 3 871 115,96 | 3 976 751,66 |
| Maşınlar va avadanlıq | 62 020,10 | 20 318,60 |
| Nəqliyyat vasitələri | 48 450,00 | 60 562,50 |
| Digər əsas vəsaitlər | 7 997,89 | 13 869,17 |
| Qeyri-maddi aktivlər | 7 960,00 | |
| **Cəmi** | **3 997 543,95** | **4 071 501,93** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **49 170,96** | **152 146,98** |
| 1.4.1 Dövlət büdcəsinə(vergilər üzrə) | 49 140,56 | 150 794,39 |
| 1.4.2 Sair debitor borclar | 30,40 | 1 352,59 |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | |
| **Pul vəsaitləri** | **106 053,65** | **13 998,92** |
| **Səhmlər və iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | | |
| **Gələcək dövrün xərcləri** | **-** | **-** |
| **Digər aktivlər** | **2 601 684,01** | **2 600 000,00** |
| **Cəmi** | **2 756 908,62** | **2 766 145,90** |
| **CƏMİ AKTİVLƏR** | **6 754 452,57** | **6 837 647,83** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 3 190 160,00 | 3 190 160,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 233 578,12 | 303 259,77 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 160 513,66 | 161 698,33 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | 2 790 963,63 | 2 790 963,63 |
| **CƏMİ KAPİTAL** | **6 375 215,41** | **6 446 081,73** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən xarici borclar | - | - |
| Alınmış avanslar | 200,00 | |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 0,00 |
| Törəmə (asılı) müəssisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 8 971,56 | 15 124,18 |
| o cümlədən xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **370 065,60** | **376 441,92** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **379 237,16** | **391 566,10** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **6 754 452,57** | **6 837 647,83** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI**

| | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| | *Məbləğ (manatla)* | |
| **Əsas əməliyyat gəlirləri** | **1 577 566,03** | **1 317 807,22** |
| Satışın maya dəyəri | 767 130,66 | 711 517,38 |
| **Ümumi Mənfəət** | **810 435,37** | **606 289,84** |
| Sair əməliyyat gəlirləri | | |
| İnzibati xərclər | 170 182,65 | 148 183,83 |
| Əməliyyat mənfəəti(zərəri) | 640 252,72 | 458 106,01 |
| Maliyyə gəlirləri | | |
| Maliyyə xərcləri | | |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə gəlirlər | | |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 127 362,470 | 4 986,860 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 41 242,35 | 25 691,69 |
| Sair xərclər | 62 415,21 | 48 352,75 |
| **Vergitutmadan əvvəl mənfəət(zərər)** | **409 232,69** | **379 074,71** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| **Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət** | **409 232,69** | **379 074,71** |
| Mənfəət vergisi | 81 846,54 | 75 814,94 |
| **Hesabat dövründə xalis mənfəət** | **327 386,15** | **303 259,77** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | **1,28** | **773,62** |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | **1,03** | **618,90** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| | *Azərbaycan manatı ilə* | |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 409 232,69 | 379 074,71 |
| Mənfəət vergisi üzrə xərclər | - 81 846,54 | - 75 814,94 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| · Əsas vəsaitlərin amortizasiyası | 127 362,47 | 4 986,86 |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | - | - |
| · Əməliyyat debitor borclarında artma/azalma | 102 976,02 | - 65 812,31 |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | - 1 684,01 | |
| · Sair maliyyə aktivləri | | |
| · Cari vergi öhdəlikləri | - | - 9 053,51 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | - 5 952,62 | - 1 846,07 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | - 6 376,32 | - 220,54 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **543 711,69** | **231 314,20** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | - 53 404,5 | - 3 203 413,32 |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **- 53 404,49** | **- 3 203 413,32** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | 3 187 670,00 |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | - 93 808,03 | - |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | - 304 444,44 | - 220 000,00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **- 398 252,47** | **2 967 670,00** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 92 054,73 | - 4 429,12 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **13 998,92** | **18 428,04** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 92 054,73 | - 4 429,12 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **106 053,65** | **13 998,92** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **3 190 160,00** | **2 790 963,63** | **383 918,52** | **6 365 042,15** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 303 259,77 | 303 259,77 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | - 220 000,00 | - 220 000,00 |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 2 220,19 | - 2 220,19 |
| **01 yanvar 2023-ci il tarixə qalıq** | **3 190 160,00** | **2 790 963,63** | **464 958,10** | **6 446 081,73** |
| 2023-ci il üzrə xalis mənfəət | | | 327 386,15 | 327 386,15 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | - 304 444,44 | - 304 444,44 |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 93 808,03 | - 93 808,03 |
| **01 yanvar 2024-ci il tarixə qalıq** | **3 190 160,00** | **2 790 963,63** | **394 091,78** | **6 375 215,41** |

# Vergi ödəyicilərinin sayında artım qeydə alınıb

Bu ilin 8 ayında respublika üzrə qeydiyyatda olan 1 milyon 570 min 205 vergiödəyicisinin 87,2 faizi fiziki şəxslər, 12,8 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.




Dövlət Vergi Xidmətindən verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 89 min 947 vahid (6,1 faiz), o cümlədən fiziki şəxslərin sayı 76 min 266 vahid (5,9 faiz), hüquqi şəxslərin sayı 13 min 681 vahid (7,3 faiz) artıb.

Sentyabr ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı 184 min 820 vahid təşkil edib. 2024-cü ilin yanvar-avqust aylarında 8741 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, bunun da 7791-i (89,1 faiz) yerli investisiyalı, 950-si (10,9 faiz) xarici investisiyalı müəssisələrdir. Dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının 7117-si (81,4 faizi) elektron qaydada, onların isə 5726-sı "ASAN İmza", 1372-si finkod+mobil üsulla, 19-u "SİMA" rəqəmsal imza vasitəsi ilə edilmiş müraciətlər əsasında qeydə alınıb.

Sentyabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 38 min 564 vahid təşkil edərək, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,7 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 32,1 faiz təşkil edib.

Sözügedən dövr ərzində dövlət qeydiyyatında olan aktiv kommersiya qurumlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,9 faiz artıb.

# «Ceremony Hall» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| QALIQLAR | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | 4321 279,88 | 4342 994,86 |
| Maşınlar va avadanlıq | 133 323,57 | 140 340,60 |
| Nəqliyyat vasitələri | - | |
| Digər əsas vəsaitlər | 40 573,71 | 32 977,08 |
| Qeyri-maddi aktivlər | 5 544,00 | - |
| **Cəmi** | **4500 721,16** | **4516 312,54** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **73 004,84** | **38 841,96** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | 73 004,84 | 38 841,96 |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **2 320,00** | **-** |
| 1.4.1 Dövlət büdcəsinə(vergilər üzrə) | | |
| 1.4.2 Sair debitor borclar | 2 320,00 | |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | |
| **Pul vəsaitləri** | **1376 046,70** | **258 104,42** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | | |
| **Gələcək dövrün xərcləri** | **-** | **-** |
| **Digər aktivlər** | | |
| **Cəmi** | **1451 371,54** | **296 946,38** |
| **CƏMİ AKTİVLƏR** | **5952 092,70** | **4 813 258,92** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 1200 000,00 | 2 000,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 159 205,49 | 190 882,13 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| Emissiya galiri | | |
| Kapital ehtiyatları | | |
| **CƏMİ KAPİTAL** | **1359 205,49** | **192 882,13** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | | - |
| Alınmış avanslar | | |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 12 465,45 | 26 070,23 |
| Törəmə (asılı) müəssisələrə kreditor borcları | | |
| Sair kreditor borcları | | 13 884,80 |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **4580 421,76** | **4 580 421,76** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **4592 887,21** | **4 620 376,79** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5952 092,70** | **4813 258,92** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI**

*Məbləğ, manatla*

| Qalıqlar | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 2 585 300,00 | 1 424 769,00 |
| Satışın maya dəyəri | 1 718 656,17 | 1 055 622,64 |
| **Ümumi Mənfəət** | **866 643,83** | **369 146,36** |
| Sair əməliyyat gəlirləri | | |
| İnzibati xərclər | 246 129,31 | -17 045,27 |
| Əməliyyat mənfəəti (zərəri) | 620 514,52 | 352 101,09 |
| Maliyyə gəlirləri | | |
| Maliyyə xərcləri | | |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə gəlirlər | | |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 31 483,46 | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | | 47 237,44 |
| Sair xərclər | | |
| Vergitutmadan əvvəl mənfəət(zərər) | **589 031,06** | **304 863,65** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət | **589 031,06** | **304 863,65** |
| Sadələşmiş vergi xərci | 206 824,00 | 113 981,52 |
| Hesabat dövründə xalis mənfəət | **382 207,06** | **190 882,13** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 4,91 | 1524,32 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | 3,19 | 954,41 |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 589 031,06 | 321 909,21 |
| Mənfəət vergisi üzrə xərclər/sv | - 206 824,00 | - 113 981,52 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| Əsas vəsaitlərin amortizasiyası | 30 867,46 | 63 126,15 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 616,00 | |
| Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| Ehtiyatlar üzrə artma/azalma | - 34 162,88 | - 38 841,96 |
| · Əməliyyat debitor borclarında artma/azalma | - 2 320,00 | - |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | | - |
| · Sair maliyyə aktivləri | | |
| · Cari vergi öhdəlikləri | - 13 604,78 | 26 070,23 |
| Əməliyyat kreditor borclarında artma/azalma | - 13 884,80 | 13 884,80 |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | | 55 110,00 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **349 718,06** | **327 276,91** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | - 15 892,09 | - 54 263,20 |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | 1 198 000,00 | 1 910,00 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1 182 107,91** | **- 52 353,20** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | | - 17 025,56 |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | - 413 883,70 | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **- 413 883,70** | **- 17 025,56** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 1 117 942,27 | 257 898,15 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **258 104,42** | **206,27** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 1 117 942,27 | 257 898,15 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **1 376 046,69** | **258 104,42** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | **90,00** | **-** | **-** | **90,00** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 190 882,13 | 190 882,13 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 910,00 | | | 1 910,00 |
| Elan edilmiş dividendlər | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - | - |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **2 000,00** | **-** | **190 882,13** | **192 882,13** |
| 2023-ci il üzrə xalis mənfəət | | | 382 207,06 | 382 207,06 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 198 000,00 | | | 1 198 000,00 |
| Elan edilmiş dividendlər | | | - 413 883,70 | -413883,70 |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | | - |
| **31 dekabr 2023-ci il tarixə qalıq** | **1 200 000,00** | **-** | **159 205,49** | **1359 205,49** |

# «Baku Food Center» QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| ***Uzunmüddətli aktivlər*** | | |
| Binalar, tikillilar va qurğular | | 76 813,06 |
| Maşınlar va avadanlıq | | |
| Nəqliyyat vasitələri | | |
| Digər əsas vəsaitlər | 7 514,13 | 5 722,47 |
| Qeyri-maddi aktivlər | 2 736,00 | - |
| **Cəmi** | **10 250,13** | **82 535,53** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **37 008,69** | **80 840,81** |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | 35 408,30 | 80 840,81 |
| 1.4.2 Sair debitor borclar | 1 600,39 | |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | |
| **Pul vəsaitləri** | **118 639,78** | **51 014,72** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | | |
| **Gələcək dövrün xərcləri** | **1 815,88** | **-** |
| **Digər aktivlər** | | |
| **Cəmi** | **157 464,35** | **131 855,53** |
| **CƏMİ AKTİVLƏR** | **167 714,48** | **214 391,06** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 2 000,00 | 2 000,00 |
| Hesabat dövrünün xalis mənfəəti | | 43 821,25 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 33 960,97 | 28 989,72 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | | |
| **CƏMİ KAPİTAL** | **35 960,97** | **74 810,97** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | - | - |
| Alınmış avanslar | | |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 0,00 |
| Törəmə (asılı) müəssisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 7 371,95 | 15 198,53 |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **124 381,56** | **124 381,56** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **131 753,51** | **139 580,09** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **167 714,48** | **214 391,06** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI**

| Qalıqlar | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 579 297,63 | 421 000,86 |
| Satışın maya dəyəri | 332 869,02 | 299 535,93 |
| **Ümumi Mənfəət** | **246 428,61** | **121 464,93** |
| Sair əməliyyat gəlirləri | | |
| İnzibati xərclər | 90 383,41 | 61 993,14 |
| Əməliyyat mənfəəti (zərəri) | 156 045,20 | 59 471,79 |
| Maliyyə gəlirləri | | |
| Maliyyə xərcləri | | |
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə gəlirlər | | |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 78 362,80 | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 1 443,75 | 1 818,86 |
| Sair xərclər | 3 900,00 | 2 876,37 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **72 338,65** | **54 776,56** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |
| **Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət** | **72 338,65** | **54 776,56** |
| Mənfəət vergisi | 14 467,73 | 10 955,31 |
| **Hesabat dövründə xalis mənfəət** | **57 870,92** | **43 821,25** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 36,17 | 27,39 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1 (bir) səhmin əsas mənfəəti | 28,94 | 21,91 |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| | 2023-ci il | 2022-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 72 338,65 | 54 776,56 |
| Mənfəət vergisi üzrə xərclər | - 14 467,73 | - 10 955,31 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| · Əsas vəsaitlərin amortizasiyası | 1 245,74 | - |
| · Qeyri-maddi aktivlərin amortizasiyası | 304,00 | |
| · Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | 76 813,06 | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| · Ehtiyatlar üzrə artma/azalma | | |
| · Əməliyyat debitor borclarında artma/azalma | 43 832,12 | |
| · Sair qısamüddətli aktivlərdə artma/azalma | - | - |
| · Sair maliyyə aktivləri | - 1 815,88 | - 4 970,00 |
| · Cari vergi öhdəlikləri | | - 2 509,59 |
| · Əməliyyat kreditor borclarında artma/azalma | - 7 826,58 | - |
| · Sair qısamüddətli öhdəliklərdə artma/azalma | | |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **170 423,38** | **- 51 020,34** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | - 6 077,40 | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktiv-lərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktiv-lərinə aid edilən, kapitallaşdırılma-yan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | 1 100,00 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **- 6 077,40** | **1 100,00** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | - 57 870,92 | - |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | - 38 850,00 | - 22 000,00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **- 96 720,92** | **- 22 000,00** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 67 625,06 | - 71 920,34 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **51 014,72** | **13 811,42** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 67 625,06 | - 71 920,34 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **118 639,78** | **51 014,72** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **900,00** | **-** | **55 959,83** | **56 859,83** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 43 821,25 | 43 821,25 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 100,00 | | | 1 100,00 |
| Elan edilmiş dividendlər | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 26 970,11 | - 26 970,11 |
| **01 yanvar 2023-ci il tarixə qalıq** | **2 000,00** | **-** | **72 810,97** | **74 810,97** |
| 2023-ci il üzrə xalis mənfəət | | | 57 870,92 | 57 870,92 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Elan edilmiş dividendlər | | | - 38 850,00 | - 38 850,00 |
| Maddələr arasında köçürmələr | | | | |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 57 870,92 | - 57 870,92 |
| **01 yanvar 2024-ci il tarixə qalıq** | **2 000,00** | **-** | **33 960,97** | **35 960,97** |

## 2025-2028-ci illərdə manatın məzənnəsi sabit qalacaq

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2025-2028-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb.

Trend xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir.

Qeyd edilib ki, proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir.

## Gələn il 129 milyard manatlıq ÜDM istehsal olunacağı proqnozlaşdırılır

Azərbaycan hökuməti 2025-ci ildə ölkəyə 129,2 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunacağını proqnozlaşdırır.

Trend xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir.

Məlumata görə, bunun 92,2 milyard manatlıq hissəsinin qeyri-neft-qaz sektorunun payına düşəcəyi gözlənilir.

## Büdcədənkənar daxilolmaların artacağı proqnozlaşdırılır

2025-ci ildə Azərbaycanda büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalarının 840 milyon manat olacağı gözlənilir. Trend xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir.

Məlumata görə, bu, 2024-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 1,1% çoxdur.

## 2025-ci ilin sonuna Azərbaycanın dövlət borcu proqnozu açıqlandı

2025-ci ilin sonuna Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 30 milyard manat səviyyəsinədək və ya ÜDM-in 23 faizinə çatacağı proqnozlaşdırılır. Bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir.

Qeyd edilib ki, həmin dövrdə xarici dövlət borcunun 9 milyard manat və ya ÜDM-in 7 faizi həcmində, daxili dövlət borcunun isə 21 milyard manat və ya ÜDM-in 16 faizi həcmində olacağı gözlənilir.

## Gələn il üçün inflyasiya proqnozu açıqlanıb

Azərbaycan hökuməti 2025-ci ildə ölkədə illik inflyasiyanın 4,6% təşkil edəcəyini proqnozlaşdırır. Bu barədə Maliyyə Nazirliyinin hesabatında deyilir.

Məlumata görə, proqnozu İqtisadiyyat Nazirliyi beynəlxalq təşkilatların əmtəə qiymətləri ilə bağlı proqnozlarını, manatın məzənnəsinin sabitliyini, eləcə də antiinflyasiya tədbirlərini əsas götürərək hazırlayıb.

## Bakıda "mygov" rəqəmsal hökumət platformasının yenilənmiş versiyasının təqdimatı keçirilib

Tədbir çərçivəsində Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin idarə heyətinin sədri İnara Vəliyeva və digər nümayəndələr çıxış ediblər.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxışı zamanı bildirib ki, bu ilin sonuna qədər vətəndaşlara fiziki şəkildə göstərilən xidmətlərin 15 faizi rəqəmsallaşdırılacaq. Onun sözlərinə görə, "mygov" vasitəsilə vətəndaşlar şəxsi məlumatlarına daxil ola, onları yeniləyə, vacib bildirişləri izləyə və gündəlik prosesləri bir neçə kliklə avtomatlaşdıra bilərlər. Bu, daha şəffaf və istifadəçi yönümlü rəqəmsal ekosistemin inkişafına kömək edəcək, ofis ziyarətlərini və mürəkkəb kağız işlərini aradan qaldıracaq.

***"Məqsədlərimizə uyğun olaraq, ilin sonuna qədər vətəndaşlara fiziki formatda göstərilən xidmətlərin 15 faizini rəqəmsallaşdırmağı planlaşdırırıq"***, - o əlavə edib.

S.Məmmədov qeyd edib ki, "Rəqəmsal Sənəd Dövriyyəsi" (RSD) sisteminə artıq 1 700-dən çox təşkilat inteqrasiya olunub.

O vurğulayıb ki, COP29-un sədri kimi Azərbaycan davamlı və innovativ rəqəmsal həllərin tətbiqinə xüsusi diqqət yetirir.

# Dünya Bankının nümayəndələri ilə COP29-a hazırlıq müzakirə edilib



COP29 prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə Davamlı İnkişaf üzrə Regional Direktoru Sameh Naguib Vahba və Cənubi Qafqaz üzrə regional direktoru xanım Rolande Prays ilə görüşüb. Bu barədə COP29-un rəsmi "X" sosial hesabında paylaşım edilib.

Müzakirələr zamanı Dünya Bankının Azərbaycanda, xüsusilə su və kənd təsərrüfatı sektorlarında davam edən və planlaşdırılan proqramları, həmçinin COP29-a hazırlıq müzakirə olunub.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28 plenar iclasında qəbul edilib. İki həftə ərzində dünyanın mərkəzinə çevrilən Bakı 70-80 minə yaxın xarici qonaq qəbul edəcək.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir. "COP" (Conference of Parties) abbreviaturası İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ən yüksək qanunverici orqan olan "Tərəflərin Konfransı" mənasını verir.

Konvensiyada 198 ölkə iştirak edir. Tərəflər başqa cür razılaşmırsa, COP hər il keçirilir. İlk COP tədbiri 1995-ci ilin martında Berlində baş tutdu və onun katibliyi Bonnda yerləşir.

## Vida sözü



MƏMMƏDOV İBRAHİM ABUZƏR OĞLU

***Məmmədov İbrahim Abuzər oğlu 1932-ci il iyunun 10-da Sabirabad rayonunun Məmişlər kəndində anadan olmuşdur.1958-ci ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu "Sənaye iqtisadiyyatı" ixtisası üzrə bitirmiş, həmin ildən 1964-cü ilə kimi Sabirabad rayonunun müxtəlif kənd təsərrüfatı müəssisələrində iqtisadçı, baş mühasib vəzifələrində çalışmışdır. O, 1964-cü ildə Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına daxil olmuş, 1968-ci ildə Daşkənd Xalq Təsərrüfatı İnstitutunda "Azərbaycan Respublikasında pambıqçılığın müasir vəziyyəti və inkişaf perspektivləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.***

1971-1987-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Mühasibat uçotu" kafedrasının baş müəllimi, dosenti vəzifələrində işləmiş, 1976-cı ildə Moskva Maliyyə İnstitutunda,1982-ci ildə Leninqrad Maliyyə-İqtisad İnstitutunda müəllimləri təkmilləşdirmə kurslarını keçmişdir. Professor İbrahim Məmmədov 1974-1984-cü illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun uçot-iqtisad fakültəsinin axşam şöbəsinin dekanı, 1984-87-ci illərdə "Mühasibat uçotu" kafedrasının müdiri, 1988-1991-ci illərdə Azərbaycan Respublikası İcarədarlar və Sahibkarkar İttifaqında baş direktor müavini vəzifələrində işləmişdir.

O, 83 çap vərəqi həcmində 57 elmi əsərin, mühasibat uçotuna dair dərs vəsaitinin müəllifi olmuş, dəfələrlə beynəlxalq konfranslarda aktual məsələlərlə bağlı çıxışlar etmişdir. 1989-cu ildə Azərbaycanda 15 illik dövrü əhatə edəcək əhalinin inkişaf proqramının "Miqrasiya prosesinin səmərələşdirilməsi" bölməsinin işlənib hazırlanması məhz İbrahim müəllimin xidməti olmuşdur. O, 1993-cü ildən Bakı Biznes Universitetində tədris işləri üzrə prorektor və "Bələdiyyə idarəetməsi və iqtisadiyyatın hüquqi tənzimlənməsi" kafedrasının müdiri vəzifəsində çalışmış, gənc nəslin tərbiyəsində, yüksək ixtisaslı kadrların hazırlanmasında səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.04.2003-cü il tarixli kollegiya qərarı ilə Fəxri Fərmanla təltif edilmişdir. Habelə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 avqust 2000-ci il tarixli müvafiq əmri ilə İbrahim müəllim ali və orta ixtisas təhsil problemləri üzrə tədris-metodik şurasının üzvü kimi fəaliyyət göstərmişdir.

***İbrahim Abuzər oğlu Məmmədov nəinki böyük pedaqoq və elm fədaisi, həm də sadə, təvəzökar, yüksək yaradıcılıq potensialını gənc nəslin faydalanması üçün əsirgəməyən insan, böyük bir nəslin, ailənin başçısı olmuşdur.***

İbrahim müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Ziyad Səmədzadə,**
**İbad Abbasov,**
**Süleyman Qasımov,**
**Fərahim Sadıqov,**
**Sabir Əmirxanov,**
**Xatirə Əzizova**

## Dr.Minazər Abdullayeva: "Məktəb yükünün öhdəsindən gəlmək üçün valideynlər uşaqlarına şərait yaratmalıdır"

***Artıq bir neçə gündür dərs ili başlayıb və məktəblər qapılarını uşaqların üzünə açıb. Yay tətilində doyunca istirahət etmiş övladlarımız yenidən məktəb həyatına başlayıblar. Bəs məktəbdə dərs yükləmələri uşaqlarımızın səhhətinə necə təsir edir? Bu yükü azaltmaq və tədris üçün əlverişli şərait yaratmaq məqsədilə biz valideynlər nə edə bilərik?***

Məhz bu suallarla Mərkəzi Gömrük Hospitalının pediatr-neonatoloqu Minazər Abdullayevaya müraciət etdik.



***- Minazər həkim, məktəblərdə dərs ilinə start verildi. Bildiyimiz kimi, məktəbin yükü artıb və uşaqlar bu yükün öhdəsindən gəlmək üçün gündəlik rejimlərini dəyişməli olublar. Bu, onların səhhətinə necə təsir edir?***

- Müasir məktəb uşaqların qarşısına daha çox tələblər qoyur – çoxlu dərslər, ev tapşırıqları, əlavə məşğələlər və s. Yaxşı bilik və əla qiymətlər üçün olan bu yarış uşağı əsas məsələdən - düzgün yuxu və istirahətdən, nəticədə isə sağlamlıqdan məhrum edir. Bunun qarşısını almaq, məktəb yükünün öhdəsindən gəlmək üçün valideynlər şərait yaratmalıdırlar.

***- Bəs bu şəraiti necə yaratmaq olar?***

- Uşaqlarda dərslərlə bağlı yüklənmələr stress yaradır. Bu stress özünü həyəcan, yorğunluq, hətta depressiv hallarda göstərir. Daim gərginlikdə olmaq uşaq orqanizmini zəiflədir, gələcəkdə onun səhhəti ilə bağlı problemlərə yol açır. Baş ağrıları, funksional depressiya, immunitetin aşağı düşməsi və s. – bütün bunlar daimi stressin nəticəsi ola bilər. Ona görə də çalışmalıyıq ki, uşaqlarımız üçün gündəlik iş qrafiki quraq. Bunu elə qurmalıyıq ki, uşaq gün ərzində həm dərsləri ilə məşğul olsun, həm də lazımi qədər istirahət edə bilsin.

Ev tapşırıqlarını yerinə yetirmək üçün vaxt müəyyən edin. Qoy uşaq ev tapşırıqları ilə hər gün eyni vaxtda məşğul olsun. Bu, vərdişə çevriləcək və stressi azaldacaq. Hər fənn üçün vaxt ayırın və qısa fasilələri müəyyən edin. Məsələn, hər 25 dəqiqə iş və 5 dəqiqə fasilə vaxtı olsun.

Gündəlik iş qrafikinə istirahət və hobbi ilə məşğul olma saatlarını da salın. Hər bir uşaq gəzməli, idmanla məşğul olmalı, oyunlar oynamalı, dostları ilə ünsiyyətdə olmalıdır. Bu, həm gərginliyi azaldır, həm də enerji verir.

***- Yuxunun uşaqların sağlamlığı üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- Məktəb yükünün öhdəsindən gəlmək üçün mütləq uşaqların yuxu rejimini tənzimləmək lazımdır. Belə ki, yuxu nəinki istirahət, həm də onların inkişafının mühüm hissəsidir. Yuxu çatışmazlığı uşaqların əsəbi olmasına, yaddaşlarının və diqqətlərinin pisləşməsinə, müvəffəqiyyət qazanmalarının azalmasına səbəb ola bilər. Mütəxəssislər hesab edir ki, məktəbyaşlı uşaqlar gün ərzində 9-10 saat yatmalıdırlar. Lakin məktəb tapşırıqlarının həddən artıq çox olması səbəbindən uşaqlar daha az yatırlar. Bu isə onların fiziki və emosional vəziyyətlərinə təsir edir. Uşaq hər gün, hətta şənbə və bazar günlərində eyni vaxtda yatmalıdır. Bu, onun qrafikə tez vərdiş etməsinə kömək edəcək və yuxusunun keyfiyyətini artıracaq.

***- Minazər həkim, məktəbyaşlı uşaqlar necə qidalanmalıdır?***

-Qidalanma uşağın enerji səviyyəsinə, diqqətinə və əhval-ruhiyyəsinə birbaşa təsir edir. Hər uşaq üçün səhər yeməyi mütləqdir. Burada mürəkkəb karbohidratlara (sıyıqlar, buğda çörəyi), zülallara (kəsmik, yumurta) və mövsüm üzrə meyvələrə və tərəvəzlərə üstünlük verin. Ara yeməklərində uşağa faydalı qidalar – qoz, meyvə, yoqurt təklif edin. Bu qidalar qanda şəkəri stabil saxlamağa kömək edir.

Axşam yeməyi yuxudan 2-3 saat əvvəl olmalıdır. Yüngül şam yeməyi yuxuya getmə problemlərini aradan qaldırır. Axşamlar uşaqlarınıza şirniyyat verməyin.

***- İndi uşaqlar da böyüklər kimi oturaq həyat tərzinə keçib. Həyətlərdə daha az oynayan, gəzən uşaqlara rast gəlirik. Bu, onların sağlamlığına necə təsir edir?***

- Məktəb yükü və ev tapşırıqları aktiv istirahət və açıq havada gəzintilər üçün vaxtı azaldıb. Bu, orqanizmin ümumi vəziyyətinə təsir edir. Oturaq həyat tərzi artıq çəki almağa, sonralar isə ürək xəstəliklərinə aparan yoldur. Ona görə də yuxarıda dediyim kimi, uşaqlarınızın gündəlik iş qrafikində gəzintilər və oyunlar üçün də vaxt ayırın.

***- Sonda valideynlərə nə demək istərdiniz?***

- Ümumiyyətlə, valideyn övladının dostu olmalıdır. Yaxşı qiymət almadıqda, hər hansı bir səhv işə görə onu danlamayın, daha yaxşı qiymət almaq üçün məsləhətlərinizi verin, ona dəstək olun.

***- Maraqlı müsahibəyə görə təşəkkür edirik.***

**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## "Bakcell" "Formula 1" üzrə Azərbaycan Qran Prisinin tədbir sponsoru idi

Azərbaycanın ən sürətlisi "Bakcell" 13-15 sentyabr tarixlərində keçirilən "Formula 1 Azərbaycan Qran Pri 2024"-ün tədbir tərəfdaşı olub. Bununla bağlı "Bakcell" və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti arasında tədbir sponsorluğuna dair müqavilə imzalanıb.

Əməkdaşlıq çərçivəsində Qran Prinin Azneft tribunası "Bakcell" adlandırılıb. Tribuna ərazisində yerləşən istirahət və əyləncə zonasında qonaqlar "Bakcell"in ultrasürətli şəbəkəsini sınaqdan keçirmək, həmçinin müxtəlif oyun və əyləncələrə qatılmaq imkanı əldə ediblər. Bundan əlavə, şirkət yarış günlərində "Bakcell" tribunası yaxınlığında yerləşən əyləncə zonasında öz innovativ məhsul və xidmətlərini tamaşaçılara təqdim edib.




## "Bakcell" dən "iPhone 16" qazanmaq şansı!




"Bakcell" sosial şəbəkə hesablarında "Formula 1" sponsorluğu çərçivəsində "iPhone 16" və "Formula 1" yarışına biletlər qazandıran müsabiqə elan edib. Müsabiqədə qalib olmaq üçün şirkətin rəsmi sosial şəbəkə hesablarını izləmək və qeyd olunan şərtlərə riayət etmək lazım idi. Şirkətdən aldığımız məlumata görə, "Formula 1" biletlərini və "iPhone 16" qazanan şəxsin adı artıq məlumdur.

Qeyd edək ki, "Bakcell" daha əvvəl də "Formula 1 Azərbaycan Qran Pri 2024"-ün rəsmi tədbir sponsoru olduğunu açıqlamışdır. Şirkətin sponsorluğa dair hazırladığı videoçarxda "Formula 1" bolidinin Azərbaycanın müxtəlif bölgələrindən keçərək paytaxt Bakıya gəlməsi əks olunur.

## TikTok tətbiqi Azərbaycan dilində də istifadəyə verilib




Qısa videolar üzrə aparıcı platforma olan "TikTok,, Azərbaycan dilində də mövcud olmasını elan edib.

Azərbaycan dili seçimi Android və İOS cihazları üçün tətbiqin son buraxılışına əlavə olunub.

Qeyd edilib ki, istifadəçi interfeysinin lokalizasiyası "TikTok" platformasını azərbaycandilli istifadəçilər üçün əhəmiyyətli dərəcədə asanlaşdıracaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə və Elşad Səmədzadə professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Ziyad Səmədzadə və professor Elşən Hacızadə İsrafil Əliyevə bacısı
**SAHİBƏ CƏBİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Vahid Novruzov və professor Elşən Hacızadə professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Eldar Quliyev və professor Bəyalı Ataşov professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor İbad Abbasov və professor Arif Hüseynov professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Rəsul Balayev və professor Məhiş Əhmədov professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Anar Əzizov professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Pəri Həsənova və Mehriban Yadulla professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə Elçin Nadirliyə qazi qardaşı
**FAMİL NADİRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Asəf Həsənova qaynatası
**XALİD ƏLİMƏRDANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi professor Murad Tağıyevə atası
**RAMİZ TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**